BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2013

UOT 94 (479.24)

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ LƏNKƏRAN QƏZASINDA AQRAR MÜNASİBƏTLƏR

**B.B.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***behmen_76@mail.ru***

*Şimalı Azərbaycanın cənub-şərq regionunu əhatə edən Lənkəran qəzası Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi kimi, çar I Nikolayın dövründə (1825-1855) həyata keçirilmiş 1840-ci il il 10 aprel qanunu ilə Talış əyalətinin əsasında yaradılmışdı.*

*Tədqiq olunan dövrdə Lənkəran qəzasında pay torpaqlarının müəyyən edilmiş normadan dözülməz dərəcədə az idi. Lənkəran qəzasında sahibkar kəndliləri içərisində aztorpaqlı kəndlilər xüsusi çox idi. Qəzada 52 sahibkar kəndində, 2105 kəndli təsərrüfatında yaşayan 6120 nəfər sahibkar kəndlilərinin istifadəsində 7872 desyatin pay torpağı vadır. Orta hesabla hər kəndli təsərrüfatına 3,77 desyatin, hər nəfər sahibkar kəndliyə isə 1,28 desyatin pay torpağı düşürdü. Bu kəndlilərdən 1220 nəfəri aztorpaqlı idi, onların hər birinin istifadəsinə 0,5 desyatinə yaxın pay torpağı vardır. Qəzanın bəzi kəndlərində, o cümlədən Göyəçöl, Sərçovar, Qızı-Ağac kəndlərində pay torpaqlarını desyatinə yox, kvadrat sejen ilə ölçmək mümkün idi.*

*Əgər XX əsrin əvvəllərində Cavad qəzasında hər bir sahibkar kəndliyə orta hesabla 2 desyati, Quba qəzasında 0,9 desyatin, Şuşa qəzasında 0,79 desyatin, Qaryagin qəzasında 0,74 desyatin, Cavanşir qəzasında 0,59 desyatin torpaq düşdüyü halda, Lənkəran qəzasında 0,5 desyatin pay torpağı düşürdü. Lənkəran qəzasının hər yerində kəndlilər torpaqların ədalətsiz bölünməsindən şikayət edirdilər.*

**Açar sözlər:** Azərbaycan, Lənkəran qəzası, aqrar münasibətlər

Şimalı Azərbaycanın cənub-şərq regionunu əhatə edən Lənkəran qəzası Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi kimi, çar I Nikolayın dövründə (1825-1855) həyata keçirilmiş 1840-ci il il 10 aprel qanunu ilə Talış əyalətinin əsasında yaradılmışdı. Qəzanın mərkəzi Lənkəran şəhəri idi. İnzibati ərazi bölgüsünə görə Lənkəran qəzası 5 polis dairəsinə bölünmüşdü. Bu dairələr: mərkəzi Lənkəran şəhəri olan Lənkəran, mərkəzi Astara olan Astara, mərkəzi Lerik olan Zuvand, mərkəzi Nikolayevka kəndi olan Ərkivan və mərkəzi Prişib kəndi olan Sebican polis dairələrindən ibarət idi. Həmin polis dairələrinin hər biri də bir neçə kənd cəmiyyətini əhatə edrdi. Hər bir kənd cəmiyyəti isə bir neçə kəndi birləşdirirdi.

Çar Rusiyasının ucqar aqrar əyalətlərindən biri olan Lənkəran qəzasının əhalisi əsas kənd təsərrüfatı ilə məşğul olurdu. Kənd təsərrüfatı istehsalı üçün mühüm əhəmiyyəti olan torpaqlar isə dövlət və xüsusi sahibkarların mülkiyyətində idi.

Azərbaycanda torpaq sahibləri ilə kəndlilər arasında mövcud olan aqrar münasibətlərini müəyyənləşdirmək məqsədi ilə çar rusiyası 1870-ci ildə kəndli islahatları həyata keçirdi. İslahatda tətbiq edilən torpaq nizamnamələri iri mülk sahibləri ilə onlardan aslı olan kəndlilər arasında qarşılıqlı münasibətləri və tərəhhüdləri əks etdirən və hər bir sahibkar kəndli üçün ayrıca tərtib edilmiş rəsmi sənəd kimi təsdiq edilmişdir.

Rusiyanın daxili quberniyalarında, torpaq nizamnamələrinin tətbiq edilməsi mülkədarların özlərinə tapşırıldığı halda, Azərbaycanda isə torpaq nizamnamələrinin tərtib edilməsi çar məmurlarından ibarət münsuflərə həvalə edilmişdir. Bu barədə məlumat verən dövrü mənbələrdə göstərilirdi ki, “Burada (Azərbaycanda) torpaq nizamnamələrinin tərtib edilməsi, Rusiyanın daxili quberniyalarında olduğu kimi, torpaq sahiblərinin özlərinə həvalə edilə bilməzdi” (15, 3).

Bu məsələdə yerli torpaq sahiblərinə etibar etməyən carizim Azərbaycanda torpaq nizamnamələrinin tərtib edilməsini özlərinin təyin etdiyi münsiflərə havalə etməklə, yerli torpaq sahiblərini ancaq müşahidəçi kimi komissiyada saxlamışdır.

Torpaq nizamnamələrinin münsiflər tərəfindən tərtib edilməsi, çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçi siyasətinin ruhuna uyğun gəlirdi. Torpaq nizamnamələrinin tərtib edilməsi prosesində mübahisəli, sahibləri və hududları məlum olmayan torpaq sahibləri bir qayda olaraq dövlət torpaq fonduna daxil edildi. Münsiflər bu kimi torpaq sahələrini nəyinki aşkara çıxartmalı, habelə bütün imkanlarından istifadə edərək həmin torpaqlar üzərində dövlətin sahiblik hüququnun təsdiq edilməsinə nail olmalı idilər. Belə mübahisəli torpaqlar o zaman Azərbaycanda çox idi. Bu məqsədlə çarizim bu torpaqları nəzarəti əldə saxlamaq məqsədi ilə nizamnamənin tətbiq edilməsini yerli feodallara deyil, öz məmurlarına həvalə etmişdir.

Bu nizamnamələr çarizmin aqrar müstəmləkə siyasətini açıb göstərən qiymətli tarixi sənəddir. Hələ 1870-ci ildə asılılıq münasibətlərinin rəsmən ləğv edilməsi haqqında qanun verən çarizim, əməli işdə, bu münasibəti bu və ya başqa formada saxlamağa cəhd göstərirdi. Pay torpaqlarını satın almaq haqqındakı qanundan sonra tərtib edilmiş nizamnamələrə yenə də asılılıq münasibətlərinin əlamətləri: pay torpaqlarının zolaqlığı, cinsi mükəlləfiyyətlərin miqdarı, daşınması və s. qeyd edildiyini görürmək olar (15, 6).

Bu dövrdə pay torpaqlarının müəyyən edilmiş normadan dözülməz dərəcədə az olduğu Bakı quberniyasının Lənkəran qəzasında müşahidə edilirdi. Lənkəran qəzasında sahibkar kəndliləri içərisində aztorpaqlı kəndlilər xüsusi çox idi. Qəzada 52 sahibkar kəndində, 2105 kəndli təsərrüfatında yaşayan 6120 nəfər sahibkar kəndlinin istifadəsində 7872 desyatin pay torpağı var idi. Orta hesabla hər kəndli təsərrüfatına 3,77 desyatin, hər nəfər kəndliyə isə 1,28

desyatin pay torpağı düşürdü. Bunlardan 1220 nəfəri aztorpaqlı idi, onların hər birinin istifadəsinə 0,5 desyatinə yaxın pay torpağı var idi. Qəzanın bəzi kəndlərində, o cümlədən Göyəçöl, Sərçovar, Qızıl-Ağac kəndlərində pay torpaqlarını desyatinə yox, kvadrat sejen ilə ölçmək mümkün idi (15, 10).

Göründüyü kimi, Azərbaycan qəzalarında ən az torpağı olan Lənkəran qəzasının kəndləri idi. Əgər XX əsrin əvvəllərində Cavad qəzasında hər bir sahibkar kəndliyə orta hesabla 2 desyatin, Quba qəzasında 0,9 desyatin, Şuşa qəzasında 0,79 desyatin, Qaryagin qəzasında 0,74 desyatin, Cavanşir qəzasında 0,59 desyatin torpaq düşdüyü halda, Lənkəran qəzasında 0,5 desyatin pay torpağı düşürdü. Lənkəran qəzasının hər yerində kəndlilər torpaqların ədalətsiz bölünməsindən şikayət edirdilər.

1905-ci ildə Bakı quberniyasını təftiş etmiş senatın üzvü Kuzminskinin hesablamasına görə, bəy torpaqlarında yerləşən kəndlilərin hər birinə 1,9 desyatin düşdüyü halda Lənkəran qəzasında 0,5 desyatin düşürdü.

Bu dövrdə kəndlilərin istifadəsində olan pay torpaqalarının dözülməz dərəcədə az olması kütləvi xarakter daşıyırdı. Rəsmi dövlət sənədlərində kəndlilərin müəyyən edilmiş normadan az pay torpağı olması etiraf edilirdi. “Zaqafqaziya ölkəsində kəndlilər olduqca nadir hallarda düzgün, müəyyən olunmuş norma daxilində pay torpağı almışdılar” (6, f.7, siy. 4, iş 4, vər. 86; 15, 10-11).

Bütün bunlara baxmayaraq, Rusiyanın daxili quberniyalarından Azərbaycana köçürülmüş rus kəndliləri torpaqla daha çox təmin edilmişdilər. Onların hər birinin təsərrüfatında orta hesabla 36,07 desyatin torpaq vardır. Bəzi kəndlərdə isə rus kəndlilərinin istifadəsində 70 desyatindən çox torpaq var idi. Ümumiyyətlə, köçüb gəlmiş rus kəndlilərinin torpaqla təmin edilməsi, yerli Azərbaycan kəndlilərindən müqayisə edilməz dərəcədə çox olub 19,25 desyatinlə 76,34 desyatin arasında tərəddüd edirdi (16, 90). Burada çarizmin aqrar müstəmləkə siyasətinin mahiyyəti daha aydın görünür.

Qeyd etmək lazımdır ki, kədlilərin pay torpağı ilə təmin edilməsi getdikcə ağırlaşırdı. Əhalinin təbii artımı ilə əlaqədar olaraq, pay torpağından istifadə edən kəndli təsərrüfatlarının sayı durmadan artırdı, pay torpaqları isə əvvəlki qədər qalmaqda davam edirdi. Yeni əmələ gəlmiş təsərrüfatlar əksəriyyət halda torpaqsız qalırdılar. Bu barədə Lənkəran qəzasının Şaqalaküçə kəndinin sakinlərinin 1900-cü ildə Torpaq nazirliyinə göndərdiyi şikayət məktubunda da bu öz əksini tapır. Məktubda kəndlilər torpağın həddindən artıq az olmasına etirazlarını bildirir, torpaqların bərabər bölünməsini ciddi şəkildə tələb edirdlər.

XIX əsrin 70-ci illərində qəbul edilmiş kəndli Əsasnaməsi torpaq sahiblərinə “kəsik” tələb etmək hüququ da verilmişdir. Bu barədə Əsasnamənin 9-cu maddəsində yazılır: “Əgər kəndlilərin istifadəsində qalan pay torpaqları hər nəfər üçün müəyyən edilmiş 5 desyatindən artıq idisə və torpaq sahibinin istifadəsində qalan torpaqlar ümumi mülkdə olan torpağın 1/3 hissəsindən az idisə, bu halda torpaq sahibinin, pay torpağı hesabına kəndlilərdən “kəsik” tələb etmək hüququ var idi” (15, 14; 7, f.43, siy.1, iş 3, vər.3).

Lənkəran qəzasında torpaq sahibləri Əsasnaməyə əsasən "kəsik" tələb etmək hüququndan istifadə edərək Boladi kəndində kəndli pay torpaqlarından 105 desyatin (9, f.51, siy.2, iş 8, vər.3), Kaşad kəndində 530 desyatin (8, f.51, siy.2, iş 7, vər.3, 4), Lyakəran kəndində 610 desyatin əkin üçün yararlı olan torpaq sahələrini kəsib götürmüşlər (10, f.51, siy.2, iş 385, vər.2, 3).

Münsiflər tərəfindən kəndli pay torpaqlarının sahibkarların xeyrinə kəsilməsi Lənkəran qəzasının Loran və Ərçivan kəndlilərinin şikayətinə səbəb olmuşdur. Münsifin özbaşınalığı üzündən Loran kəndlilərinin pay torpağından 75 desyatini torpaq sahibinin 25 desyatini isə kənd ruhanilərinin xeyrinə kəsilmişdır (9, f.51, siy.2, iş 8, vər.2, 5). Ərçivan kəndliləri torpaq sahibinin xeyrinə olaraq kəsilmiş pay torpaqlarını geri qaytarmaq üçün 1875-ci ildən 1916-ci ilə qədər mübarizə aparmışdılar. Onların 1915-ci ildə Qafqaz canişinliyinə yazdıqları şikayət məktubunda göstərilirdi ki, "öyrəndiyimizə görə hal-hazırda canişindən sərəncam gəlmişdir, lakin münsif onu bizə elan etmir" (11, f.51, siy.2, iş 226, vər.1).

Torpaq sahiblərinə "kəsik" tələb etmək hüququnun verilməsi feodal asılılıq münasibətini saxlamaq üçün çarizmin gördüyü tədbirlərdən biri idi.

Bəylər tərəfindən kəndli pay torpaqlarının zəbt edilməsi bütün qəzalarda müşahidə edilirdi. Lənkəran qəzasında yerli iri torpaq sahibkarları kəndli pay torpaqlarını zəbt etməklə "şöhrət" qazanmışdılar. Rusiya ilə birləşmədən sonra xaricə qaçan mülk sahiblərinə geriyə qaytarmaq imkanı verilmişdir. Onların bəzilərinə cəza tədbiri olaraq torpaq mülkləri tam qaytarılmamışdı. Bununla əlaqadar olaraq onlar əllərindən çıxmış torpaq mülkiyyətini tamamlamaq üçün kəndli pay torpaqlarını müntəzəm surətdə zəbt edirdilər. Qəzada kəndli pay torpaqlarının zəbt edilməsi o qədər geniş yayılmışdır ki, bundan qorxuya düşən Lənkəran qəza münsifi quberniya Dövlət Kəndli İdarəsinə təcili xəbərdarlıq etməyə məcbur olmuşdur. Sənəddə yerli iri torpaq sahibkarlarının Xarxatan, Osukücə, Kərgəlan kəndlərinin pay torpaqlarının xeyli hissəsinin zəbt edildiyi haqqında məlumat verilir (15, 21).

Bütün bunlara baxmayaraq, dövlət orqanları kəndli pay torpaqlarının bəylər tərəfindən zəbt edilməsinin qarşısını almaq üçün, demək olar ki, heç bir təsirli tədbir görmürdü. Bir qayda olaraq "kəndlilərin şikayəti həmişə yubadılır, onlara baxılması müxtəlif bəhanələrlə təxirə salınırdı" (12, f. 51, siy.2, iş 404, v. 2).

Çarizmin keçirdiyi islahatlar kəndlilərin pay torpağı ilə təmin edilməsini yaxşılaşdırmadı, əksinə onların kütləvi surətdə torpaqsızlaşdırılmasına səbəb oldu. Ölkə ərazisində aztorpaqlılar və ümumiyyətlə, torpaqsızlıq qarşısıalınmaz bəlaya çevrilmişdir. Kənd əhalisinin əksəriyyəti torpaq çatışmazlığı üzündən ağır həyat sürməyə məcbur idi. Bunu dövlət məmurları dəfələrlə etiraf etməyə məcbur olmuşlar.

Qafqaz canişini Vorontsov-Daşkov 1905-1907-ci illərdə Ali hökmdara yazdığı hesabatında Zaqafqaziya kəndlilərinin vəziyyətinin ağırlaşdığını qeyd etməyə məcbur olaraq, bunun bir səbəbini də pay torpaqlarının az olmasında görürdü. O göstərirdi ki, pay torpaqlarının az olması ilə mükəlləfiyyətlərin çox

olması arasında daim uyğunsuzluq əmələ gəlir (2, 222). Buna görə də, kəndlilərin iqtisadi vəziyyəti getdikcə ağırlaşır.

1870-ci ildə çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi torpaq islahatı ölkədə, o cümlədən Lənkəran qəzasında kapitalizmi əhəmiyyətli dərəcədə sürətləndirdi. Müxtəlif sahələrin xeyli inkişaf etməsi nəticəsində bölgə ümumrusiya bazarının tərkib hissinə daxil oldu. Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində Azərbaycan rus imperiyasının aqraq bir ölkəsi kimi qalmaqda idi. Kəndlilərin çox hissəsi az, həm də ən pis torpaqlardan istifadə edirdilər. Onlar öz gəlirlərinin 70 faizdən çoxunu cürbəcür töycülər və vergilər şəklində mülkədarlara verməyə məcbur idilər. Lənkəran qəzasında olan 237174 desyatin torpağın 160247 desiyatini xəzinəyə, 70000 desyatini Zaqafqaziyada böyük torpaq sahiblərindən biri olan Mirəhməd xan Talışinskiyə, 1000 desyatini L.Karpoviçə, 400 desyatini Ter-Stepanova məxsus idi. Qalan 5527 desyatin torpaq qəzanın digər sahibkarlarının əlində idi.

Bu dövrdə Azərbaycanda böyük əksəriyyəti əhatə edən dövlət kəndlərində torpaq sahibliyi dəyişikliklərə məruz qaldı. Onlar da digər kəndli sinifləri kimi aztorpaqlılıqdan əziyyət çəkir, qəzanın bəzi yerlərində isə onlar torpaq üzünə həsrət qalmışdılar. Torpağın sahibkarı olan dövlətlə onu becərən kəndlilər arasındakı münasibətlər 1900-cü ilin mayında verilmiş "Xəzinə torpaqlarında məskunlaşmış Cənubi Qafqaz dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun"da öz əksini tapdı. Bu qanuna görə, dövlət kəndliləri şəxsən azad idilər. Lakin dövlət torpağın mülkiyyətçisi olaraq qalır və bu torpaqlardan istifadə edən kəndlilər dövlət xəzinəsinə torpaq vergisi ödəməli idilər· Xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayan kəndlilər isə, bəy torpaqlarından istifadə etdiklərinə görə, bəy-mülkədarın mülkiyyət hüququna əsasən, məhsul və pulla vergi ödəməli idilər.

Bu vəziyyət 1912-ci ilə qədər davam etdi. 1912-ci il qanunu ilə feodal torpaq mülkiyyəti ləğv edildi, kəndlilər öz pay torpaqlarının sahibkarlarına çevrildilər. Buna baxmayaraq, torpaq sahibliyinin yarımfeodal xarakteri var idi, belə ki, torpaq üzərində çarizmin sahibkarlıq hüququ və bəy-mülkədar torpaq sahibliyi qalırdı. Lakin bu dövrdə bəy torpaq sahibliyinin xarakteri müəyyən qədər dəyişdi. Birincisi, bəy torpaqları artıq bəy nəslindən olmayanlara da satıla bilərdi. İkincisi və ən başlıcası o idi ki, bəylərin bir qismi əmtəə-pul münasibətlərinin inkişafının təsiri altında, təsərrüfat yaratmağın torpağı icarəyə verməkdən daha əlverişli və gəlirli olduğunu görərək, muzdlu əməyə əsaslanan təsərrüfatlar yaratdılar. Az sonra onların bir qismi kapitalist təsərrüfatlarına çevrildi.

Azərbaycanda təbəqələşmə prosesinin sürətlənməsi nəticəsində qolçomaqlardan, sələmçilərdən, dükançılardan, öz təsərrüfatını muzdlu əmək üzərində qurmuş bəylərdən ibarət kənd kapitalistləri, öz əməklərini satmaqla məşğul olan, muzdla işləyən torpaqsız və aztorpaqlı kəndli təbəqəsi formalaşdı. Lakin Azərbaycanda muzdlu əmək üzərində qurulmuş böyük təsərrüfatlar deyil, kəndlinin öz əməyi ilə becərdiyi kiçik təsərrüfatlar üstünlük təşkil edirdi.

Azərbaycan xırda kəndli təsərrüfatı ölkəsi olsa da, əmtəə istehsalının aparıcı xarakter aldığı, iqtisadiyyata kapitalistcəsinə təsərrüfat qurmaq amilinin daxil olduğu bir şəraitdən kənarda qala bilməyən kiçik kəndli təsərrüfatlarının böyük hissəsi kapitalın özünə yer edib hakim mövqe tutduğu mühitə çevrilirdi. Rəqabət nəticəsində onların bir qismi varlanaraq kənd burjuaziyasının sırasına daxil olur, torpaq sahəsini genişləndirir və muzdlu əməyə əsaslanan təsərrü-fatlar yaradırdı. Kənddə baş verən bu proseslər şüura təzə məfhumlar, ana dilimizə "qolçomaq", "muzdur", "muzdla işləyən kəndli" kimi yeni söz və ifadələr gətirirdi.

Kənd təsərrüfatında sənaye və bank kapitalı ilə bağlı iri kapitalist mülkiyyətləri də yaranırdı. Sənaye kapitalı, demək olar ki, kənd təsərrüfatının bütün sahələrinə daxil olmuşdu. Sənaye kapitalının təsiri Azərbaycandan çox-çox uzaqlara yayılaraq, bir çox cəmiyyət və şirkətlərlə əlaqədar olmuşdu. Bu dövrdə Lənkəran qəzasında düyü almaqla məşğul olan bir çox kontorlar fəaliyyət göstərirdi (14, 87). Bank kapitalı isə torpaq sahiblərinə mülklərini girov qoymaq şərtilə borc verərək kənd təsərrüfatının inkişafına təsir göstərirdi.

Azərbaycanda ticarət və sələm kapitalı əsasən mübadilə dairəsində fəaliyyət göstərirdi. Adətən kənddə eyni bir adam həm möhtəkir və həm də sələmçi olurdu. Sələmçilər özlərinin kənd kapitalı ilə yanaşı, banklardan götürdükləri və kənd təsərrüfatı məhsulları satan firmalardan aldıqları məbləğ hesabına fəaliyyət göstərirdilər. Onlar kəndlilərin məhsullarını həmin firmalara sataraq, onların sahibi olan sənaye sahibkarlarını kənd təsərrüfatına cəlb edirdilər.

Beləliklə, XX əsrin əvvəllərində əmtəə istehsalının geniş inkişafı, muzdlu əməyin tətbiqi, bəy-mülkədar təsərrüfatlarının bir çoxunun kapitalist təsərrüfatı sisteminə keçməsi, sənaye və bank kapitalının kənd təsərrüfatına sirayət etməsi və nəhayət, ticarət-sənaye kapitalının güclənməsi nəticəsində tədqiq olunan dövrdə Azərbaycanın bütün qəzalarında olduğu kimi Lənkəran qəzasında da yarımfeodal torpaq sahibliyinin mövcud olmasına baxmayaraq, istehsal üsulu artıq kapitalist istehsal üsulu idi. Əmtəə təsərrüfatının əmtəə kapitalist səviyyəsinə yüksəlməsində alıcı-sələmçilər kapitalist istehsal üsulunun təşkilatçılarına çevrilirdi. Həm də bu, o deməkdir ki, qəzanın demək olar ki, bütün kəndlərində kəndlilərin istismarı mahiyyəti etibarilə kapitalist istismarı idi.

XX əsrin əvvəllərində kənd təsərrüfatında əmtəə istehsalı aparıcı rol oynadığı bir şəraitdə həmin təsərrüfatlar istər-istəməz dar çərçivədə qala bilməzdi. Bu dövrdə onların çoxu, heç olmasa, vergiləri, yaxud ailənin zəruri ehtiyaclarını ödəmək üçün, ailə üzvlərinin yarımac qalmasına baxmayaraq, məhsulun bir hissəsini əmtəə qismində satmalı olurdu. Bundan başqa, həmin təsərrüfatlar ticarət və sələm kapitalının təsiri altına düşür, onların patriarxal özülləri kapitalist ukladının məcburən qəbul edilmiş elementlərini sarsıdırdı.

Beləliklə, XX əsrin əvvəllərində Lənkəran qəzasında kapitalist istehsal münasibətləri xeyli inkişaf etməsi nəticəsində qolçomaqların və varlı kəndlilərin kapitalist tipli təsərrüfatları ilə yanaşı, möhtəkir-sələmçi kapitalın təsiri altında olan kiçik təsərrüfatlar da yaranmışdır. Bütövlükdə götürdükdə isə böl-

gənin sosial-iqtisadi strukturunda kapitalist istehsal üsulu hakim mövqe tuturdu.

Tədqiq edilən dövrdə Azərbaycanın digər qəzalarında olduğu kimi Lənkəran qəzasının kəndliləri də müxtəlif mükələfiyyətlər yerinə yetirirdilər. Onlar yollar, körpülər və kanallar düzəltməli, xanların heyvanlarına baxmalı və digər işlər görməli idilər. Kəndlilərin yerinə yetirməyə məcbur olduqları əsas işlərdən biri məhsul vergisi olan malcəhətdən ibarət idi ki, bu da onların məhsullarının ondabirini təşkil edirdi. Qəzada kapitalist münasibətlərinin genişlənməsi ilə əlaqədar olaraq torpaqların qiyməti bahalaşmış və kənd təsərrüfatı məhsullarına tələbat artmış, həmin məhsul vergisi bir çox hallarda məhsulun üçdəbirini təşkil etməyə başlamışdı.

Lənkəran qəzasının ən böyük torpaq sahibləri Talışxanovlar və bunların içərisində ən böyük torpaq sahibi Mirəhməd xan idi. O, 75 kənddən ibarət olan Astara və Ərcivan mahallarının sahibi idi. Bu dövrdə Mirəhməd xan etiraf edərək yazırdı ki, “Mən bütün Zaqafqaziyanın ən iri mülkədarlarından biriyəm. Geniş meşəlik, əkin yerləri, balıq vətəkələri və 30-40 milyon manat qiyməti olan Astara və Ərçivan mahalları tamamili mənə məxsus mülkiyyətdir”.

Tədqiq olunan dövrdə Lənkəran qəzasının kəndliləri iri torpaq sahiblərinə 12 növə yaxın vergi verirdilər. Arxiv sənədlərinin birində qeyd edilir ki, Lənkəran qəzasında “Vergiləri almaq üçün hazırda tətbiq edilən qayda yoxsulların tamamilə dilənçi kökünə düşməsinə və dövlətlilərin yoxsullar hesabına varlanmasına səbəb olur”.

XIX əsrin sonunda XX əsrin əbbəllərində Lənkəran qəzasında kənd təsərrüfatının çəltikçilik, taxılçılıq, ipəkçilik, pambıqçılıq, tütünçülük, üzümçülük (şərabçılıq), bostançılıq, maldarlıq, meşəçilik və digər sahələri var idi. Çəltikçilik muzdlu əməyin ən çox istifadə olunduğu sahə idi. Çəltikçiliyin inkişaf etdirilməsi üçün Lənkəran qəzasında çox əlverişli təbii şərait olduğundan bu qəza çəltikçilikdə ixtisaslaşmışdı. Qəza ərazisinin dənizkənarı hissəsinin, demək olar ki, 50 faizə qədərində məhsul yetişdirilirdi. Qəzada hazırlanan əla növlü düyü Rusiya imperiyasının hər yerində yaxşı satılır və yüksək qazanc verirdi. Buna görə də, sahibkarlar onun sahəsini ilbəil genişləndirirdilər. XIX əsrin 90-ci illərində Lənkəran qəzasında 13000 desyatindən çox sahədə çəltik əkilmişdi; 1905-ci ildə isə 64335 desyatin çəltik əkilmişdi.

Qəzanın iri mülkədarları və qolçomaqları, hətta ortabab kəndlilərin çəltik zəmilərində işləyən fəhlələr əsasən Lənkəran qəzası ilə sərhəd olan Cənubi Azərbaycandan gələnlər idi. Bakı kömrük idarəsinin rəisinin 1906-ci ilin dekabr ayında verdiyi bir məlumatda Cənubi Azərbaycandan Lənkəran Astarasına böyük miqdarda fəhlənin gəldiyini qeyd etmişdi (3, 115-116).

Bununla yanaşı, Lənkəran qəzasının çəltik zəmilərində muzdla işləyən fəhlələrin bir hissəsi də qəzanın yerli yoxsul əhalisi idi. Qəzanın kəndlərində kapitalist münasibətlərinin yayılması nəticəsində burada təbəqələşmə güclənirdi. Kəndlilər kənd burjuaziyası olan qolçomaqlar və muzdurlar əmələ gəlirdi. Həmin muzdurlar sahibkarın təsərrüfatında işləməyə məcbur idilər. O dövrün

sənədlərinin birində deyilir: "İranlılarla yanaşı çəltik zəmilərində zuvandlılarda işləyir. Burada əldə etdikləri qazanc onların büdcələrində əsas yer tutur. Onlardan zəmilərdə işləməkdən daha çox çəltiyin döyülməsində istifadə edirdilər" (4, 141).

XX əsrin əvvəllərində Lənkəran qəzasında aqraq münasibərlərin yüksəlişi və xüsusilə əmtəə istehsalının artmasına sənayenin və onunla əlaqadar olaraq Lənkəran şəhərinin, habelə qəzanın yol şəbəkəsinin genişlənməsinin böyük təsiri olmuşdur.

Bütün bunlarla yanaşı, tədqiq olunan dövrdə Lənkəran qəzasında torpaqsız kəndlilərin artması nəticəsində kəndlilərin vəziyyəti olduqca ağır idi. Çarizmin köçürmə siyasəti dövlət kəndlilərinin daha da torpaqsızlaşmasına səbəb oldu. Çar hökuməti Rusiyadan köçürülmüş kəndliləri torpaqla təmin etmək üçün müxtəlif bəhanələrlə yerli kəndliləri ata-baba yurdlarından sıxışdırıb çıxarırdı.

1904-cü ildə çar müstəmləkəçiləri Lənkəran qəzası Mirmövsüm kənd əhalisini onların istifadəsində olan torpaqlardan məhrum etdilər. Bu torpaqlar köçürülmüşlərə verildi. Bu barədə Mirmövsün kənd əhli yazırdı: "Köçürmə rəisləri bizim bütün pay torpaqlarımızı kəndimizlə birlikdə köçürülmüş kəndlilərə verərək bizi tamamilə torpaqsız qoymuşdur. O, qışın soyuğuna, "vəba" xəstəliyinin yayılmasına baxmayaraq bizi arvad-uşaqlarımızla birlikdə çölə qovdu, evlərimizi və başqa tikintilərimizi dağıdıb yandırdı" (5, f.22, siy. 4, iş 861, v. 51-52; 14, 205).

Çarizmin bu köçürmə-müstəmləkəçilik siyasəti yerli kəndlilərlə köçürülmüş kəndlilər arasında düşmənçilik münasibətlərinin əmələ gəlməsinə səbəb oldu. "Məsələn, Alar camaatı öz torpaqlarından qovularaq, senator Kuzminskinin dediyi kimi"kömürülüb torpaqla təmin edilmədən başlı-başına buraxıldığı" zaman, bu camaatın torpaqlarını qəsb edən kəndlilər xəzinə hesabına silahlandırılmışdılar: yerli qəza rəislərinə əmr verilmişdi ki, "Muğanda salınan yeni kəndlərdəki kəndlilərin və o cümlədən pakrovkalıların silahla təchiz edilməsi qayğısına qalsınlar, hər 100 həyətə 10 berdenka tüfəng versinlər". Bu da, indiki siyasətin millətçi istiqamətini göstərmək üçün çox maraqlı bir misaldır" (5, f.22, siy. 4, iş 861, v. 51-52; 14, 205).

Beləliklə, kəndlilər mülkədarlar və çar məmurları tərəfindən amansız surətdə istismar olunurdular. Feodal istismar münasibətlərinin əlamati olan qeyri-iqtisadi məcburiyyət, bütün Azərbaycan qəzalarında olduğu kimi Lənkəran qəzasının aqrar münasibətində dərin kök salmış və asılı kəndlilərin var-yoxdan çıxmasına səbəb olmuşdur. Bütün bunlar, bölgədə aqrar münasibətlərin inkişafına mane olmuşdur.

## ƏDƏBİYYAT


1. Cavadov Q. Talışlar (tarixi-etnoqrafik tədqiqat). Bakı, Elm, 2004, 616 s.
2. Авалиани С.Л. Крестьянский вапрос в Закавказье. т. 4, Тифлис, 1920, с.222.
3. Вопросы истории. 1956, № 10, s. 115-116.

4. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqi, iqtisadi və mədəni nəticələri. Bakı: Elm, 1956, 256 s.
5. ADTA f.22, siy. 4, iş 861, v. 51-52.
6. AR DTA. F.7, siy. 4, iş 4, vər. 86.
7. AR DTA, f.43, siy.1, iş 3, vər.3 a.
8. AR DTA, f.51, siy.2, iş 7, vər.3-4.
9. ARDTA, f.51, siy.2, iş 8, vər.2, 3, 5.
10. ARDTA, f.51, siy.2, iş 385, vər.2-3.
11. AR DTA, f.51, siy.2, iş 226, vər.1.
12. AR DTA f. 51, siy.2, iş 404, vər. 2.
13. Əlizadə H. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı: Azərnəşr, 1963, 141 s.
14. İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı. Azərbaycan SSR EA nəşriyyatı, 1960, 240 s.
15. Nəbiyev T.Ə. Azərbaycanda aqrar münasibətləri (dərs vəsaiti). Bakı: Elm, 1970, 70 s.
16. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис, 1899, стр. 245.


## АГРАРНЫЕ ОТНОШЕНИЯ ЛЕНКОРАНСКОГО УЕЗДА В НАЧАЛЕ XX ВЕКА


**Б.Б.КЕРИМОВ**


### РЕЗЮМЕ


Ленкоранский уезд, охватывающий юго-восточный регион Северного Азербайджана в составе Бакинской губернии как территориально-административная единица, был создан Законом от 10 апреля 1840 года во время правления царя Николая I (1825-1855) на основании Талышского региона.

В исследуемом периоде паевые земельные участки в Ленкоранском уезде были невыносимо меньше установленной нормы. Среди крестьян-предпринимателей Ленкоранского уезда основная часть была представлена малоземельными крестьянами. В 52 предпринимательских селах Ленкоранского уезда в 2105 сельских хозяйствах в пользовании 6120 предпринимателей-крестьян находилось 7872 десятин паевых земель. В среднем каждому крестьянскому хозяйству принадлежало 3,77 десятин, а каждому крестьянину-предпринимателю 1,28 десятин паевых земель. Из этих крестян 1220 человек были малоземельными, в использовании каждого из них имелось около 0,5 десятин паевой земли. В некоторых селах уезда, в том числе в селе Гейечель, Сарчовар, Кызыл-Агадж паевые земли можно было измерять не десятинами, а квадратными саженями.

Если в начале XX века в Джавадском уезде на каждого крестьянина-предпринимателя в среднем выпадало 2 десятин, в Кубинском 0,9 десятин, в Шушинском 0,79 десятин, в Карягинском 0,74 десятин, в Джаванширском 0,59 десятин, то в Ленкоранском уезде это количество составляло 0,5 десятин. В каждой части Ленкоранского уезда крестьяне жаловались на несправедливое разделение земель.



**Ключевые слова:** Азербайджан, Ленкоранский уезд, аграрные отношения

## AGRARIAN RELATIONS OF LANKARAN IN THE EARLY 20TH CENTURY

**B.B.KARIMOV**

**SUMMARY**

Lankaran region, covering the south-eastern part of Northern Azerbaijan as a territorial-administrative unit was established by the Act of April 10, 1840 during the reign of Tsar Nicholas I (1825-1855) on the basis of the Talysh region.

During the mentioned period the mutual land plots in the Lankaran region were unbearably less than the established norm. Among the peasant-entrepreneurs of Lankaran district, the main part was represented to landless peasants.

**Key words:** Azerbaijan, Lankaran region, agrarian relations